**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İQTİSADİYYATIN MODERNLƏŞDİRİLMƏSİ ŞƏRAİTİNDƏ İNNOVASİYA SAHİBKARLIĞININ MEXANİZMLƏRİNİN FORMALAŞMASI

İxtisas: 5307.01 - İqtisadi nəzəriyyə

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Anar Abbas oğlu Zeynalov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2025**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Əlican Pirican oğlu Babayev**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Ümüdvar Qənbər oğlu Əliyev**

iqtisad elmləri doktoru, professor
**Hacıağa Baxış oğlu Rüstəmbəyov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Sədaqət Əyyub qızı Əbdürrəhmanova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universiteti nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurası

Dissertasiya Şurasının Sədri: ____________ imza
iqtisad elmləri doktoru, professor
**Yaşar Atakişi oğlu Kəlbiyev**

Dissertasiya Şurasının elmi katibi: ____________ imza
iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Suqra İnqilab qızı Hümbətova**

Elmi seminarın sədri: ____________ imza
iqtisad elmləri doktoru, professor
**Qabil Nadir oğlu Manafov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** İnnovativ fəaliyyəti prioritet hədəf kimi qəbul etmədən cəmiyyətimizin hazırkı inkişaf səviyyəsindən danışmaq mümkün deyil. İqtisadi artım, tərəqqi, inkişaf və innovasiya arasındakı əlaqə yeni bir yanaşma olsa da, innovasiya bəşəriyyət yaranandan bəri mövcuddur. Zaman keçdikcə, bəşəriyyətin bütün tarixi boyunca tətbiq edilən innovasiyaların nəticələri ilə biz hər yerdə qarşılaşırıq. Fərqli düşünmək, hər şeyi daha yaxşı etməyə çalışmaq və özünü təkmilləşdirmək kimi keyfiyyətlər zəkası və yaradıcılığı olan insan varlığının normal xüsusiyyətləridir. Uzun illər innovasiya yalnız hər bir insanın bacarıq və qabiliyyətlərindən təsirlənməklə sadə, ibtidai formada istifadə olunurdu, amma indi innovasiya daha geniş mənada başa düşülür, burada təhsil vermək (elm sahəsi kimi tədris olunma), öyrətmək və fitri novatorluq istedadını inkişaf etdirmək imkanı vardır. İndi inkişafımız cəmiyyətin bütün sahələrində innovasiyanı təşviq və tətbiq etmək imkanından ciddi aslıdır və bu da iqtisadi inkişaf və cəmiyyətin rifahı naminə innovasiya sahibkarlığının prolemlərinin və perspektivlərinin tədqiqini şərtləndirir.

Qloballaşma dünyada iqtisadi, texnoloji, sosioloji və bir çox digər dəyişikliklərə yol açır. İnformasiya texnologiyalarındakı proseslərin fonunda artan məhsuldarlıq və rifah səviyyəsi yalnız inkişaf etmiş ölkələrdə deyil, inkişaf etməkdə olan ölkələrdə o cümlədən, Azərbaycan iqtisadiyyatının modernləşdirilməsi şəraitində də xüsusi aktuallıq kəsb edir. Ümumiyyətlə belə qəbul edilir ki, müasir iqtisadiyyatlarda artım innovasiya yolu ilə məhsuldarlığı yüksəltmək səylərinə əsaslanır. İnnovasiya iqtisadi artım və rəqabət qabiliyyətinə töhfə verən texnoloji və struktur dəyişiklikləri üçün vacib şərtdir. Beynəlxalq ticarət və investisiya ölkələrin iqtisadi siyasətində 25-30 il əvvələ nisbətən daha mühüm rol oynayır. Buna görə də innovativ sahibkarlığın iqtisadiyyatın modernləşdirilməsi şəraitində əhəmiyyətlilik payı artmışdır.

İqtisadiyyatın modernləşməsini hədəfləyən ölkələrin məqsədlərinin reallaşması üçün həmin ölkələrə məxsus bir çox vacib amillər müstəsna əhəmiyyət kəsb edir. Modernləşmə prosesinə təsir edən amillərə cəmiyyətin modernləşməyə hazır olması, təhsilin keyfiyyəti, vətəndaş cəmiyyəti prinsiplərinin formalaşması, siyasi

islahatları aid etmək mümkündür. Eyni zamanda cəmiyyətin ənənəvi iqtisadi strukturunu və onun prinsiplərinin dayanıqlılığını nəzərə almadan modrnləşmə variantı bir çox halda müasir iqtisadiyyatda problemə çevrilir və prosesi daha da ağırlaşdırır. Modernləşmə proses olaraq mövcud iqtisadi sistemdə makroiqtisadi dinamikada dəyişikliklər edərək iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasını təmin etməlidir.

Mövzunun aktuallığını şərtləndirən digər amil isə sahibkarlıq fəaliyyətinin inkişafının iqtisadi inkişaf üçün çox önəmli olmasıdır. Sənayenin inkişafı, regional inkişaf və məşğulluğun yüksəldilməsi sahibkarlığın inkişafından asılıdır. İnnovasiyayönümlü sahibkarlıq fəaliyyəti isə rəqabətin sürətlə artdığı müasir dövrümüzdə daha çox arzuolunandır. Belə ki, yeni ideyalar axtarışı nəticəsində biznes əməliyyatlarının mövcud rejimlərinin qiymətləndirilməsi və daha effektiv və səmərəli sistemlərin tətbiqi iqtisadiyyatın modernləşdirilməsi üçün vacib amildir. Mövcud vəziyyətdə, iş mühitində, ətrafdakı bazar subyektlərində, çətin rəqabət və ciddi dəyişikliklər şəraitində müəssisələrin fəaliyyətlərini davam etdirə bilmələri üçün tək şərt yenilikçi fəaliyyətin tətbiqi və inkişafıdır.

**Problemin öyrənilmə səviyyəsi.** Mövzu üzrə həm xarici, həm də respublikanın iqtisadçı alimləri araşdırmalar aparmışlar. Xarici tədqiqatçılardan C.Şumpeter, P.Druker, İ.Kirzner, R.Nelson, B.Lundvall C.Edquist, B.Conson, P.Vindrum, P.Koç və digərləri öz tədqiqat işlərinin əksəriyyətini innovasiya, sahibkarlıq və investisiya mühitinin inkişafının nəzəri məsələlərinə həsr etmiş, eyni zamanda iqtisadiyyata maliyyə mənbələrini cəlb etməyin yollarının müəyyənləşdirilməsi istiqamətində tədqiqat aparmışlar.

Azərbaycan tədqiqatçılarından R.İ.Quliyev, Ə.C.Muradov, Ə.P.Babayev, H.A.Xəlilov, Ü.Q.Əliyev, H.B.Rüstəmbəyov, Q.N.Manafov, Ə.Q.Əlirzayev, K.A.Şahbazov, A.Ş.Şəkərəliyev, S.Ə.Əbdürrəhmanova, S.T.Abasova, R.T.Həsənov, V.Ə.Qasımlı, R.Z.Hüseyn, İ.Z.Seyfullayev və s. tədqiqatçılar tərəfindən bu problem araşdırılmışdır.

**Dissertasiya işinin məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi iqtisadiyyatın modernləşdirilməsi şəraitində innovasiya yönümlü sahibkarlıq anlamını dərinləşdirmək, müasir iqtisadi sistemdə

formalaşması mexanizminin ən mühüm tərkib hissələrini göstərmək və onun inkişaf istiqamətlərini müəyyənləşdirməkdən ibarətdir. Bunun üçün aşağıdakı məsələlərin həll edilməsi qarşıya əsas vəzifə olaraq qoyulmuşdur:

– İnnovativ sahibkarlığın elmi-nəzəri əsaslarının öyrənilməsi;
– innovasiya sahibkarlığının formalaşmasına təsir edən mexanizmlərin araşdırılması;
– sahibkarlıq fəaliyyətinin innovativ təminatı və innovasiya alətlərindən istifadə xüsusiyyətlərinin tədqiq edilməsi;
– makroiqtisadi səviyyədə innovasiya sahibkarlığını xarakterizə edən göstəricilərin müqayisəli təhlilinin aparılması;
– innovasiya sahibkarlığının səmərəliliyinin qiymətləndirilməsi meyarlarının göstərilməsi;
– rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşmasında innovativ sahibkarlığın təsir mexanizminin tədqiq edilməsi.
– investisiya-innovasiya portfelinin idarə edilməsi xüsusiyyətlərinin tədqiq edilməsi;
– innovasiya sahibkarlığının təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsinin araşdırılması;

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini iqtisadiyyatda texniki-texnoloji yeniliklərin yaradılması və yayılması üzrə sahibkarlıq fəaliyyətləri təşkil edir. Tədqiqatın predmeti iqtisadiyyatın modernləşdirilməsi şəraitində innovasiya sahibkarlığının iqtisadi, institutsional və təşkilatı mexanizmlərinin formalaşdırmasının prinsipləri, amilləri və istiqamətləridir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

1. İnnovasiya sahibkarlığının mahiyyəti, yeri və roluna, habelə formalaşması mexanizmlərinə konseptual yanaşmalara dair elmi ümumiləşdirmələr aparılışdır. *İnnovasiya və sahibkarlıq anlayışları şübhəsiz bir-biri ilə əlaqəlidir. İnnovasiya sahibkarların xüsusi vasitəsidir, onun vasitəsilə dəyişikliklərdən fərqli bir biznes fəaliyyəti və ya xidmət üçün fürsət kimi istifadə edirlər. Sahibkarlar uğurlu innovasiya üçün imkan yaradan yeniliyin mənbələrini, dəyişiklikləri və onların əlamətlərini məqsədyönlü şəkildə axtarmalı və uğurlu innovasiya prinsiplərini bilməli və tətbiq etməlidirlər.*

2. İnnovativ fəaliyyətin təşəkkülü və inkişaf dinamikasını

şərtləndirən başlıca amillər əsaslandırılmışdır. *İnnovativ fəaliyyətin inkişaf dinamikası, əsasən, sosial-iqtisadi transformasiyaya bağlıdır. Müasir dövrdə bu sahibkarlıq mədəniyyətinin formalaşması ilə əlaqədardır. Siyasi, hüquqi, iqtisadi, texnoloji, sosial-psixoloji və mədəni amillərin innovativ sahibkarlıq fəaliyyətinin inkişafında əhəmiyyətli rol oynayır.*

3. İnnovasiya sahibkarlığının iqtisadi artımın və rəqabətqabiliyyətliyin təmin olunması amili kimi rolunun və bu istiqamətlərdə qiymətləndirmələrin aparılması ilə bağlı əsas meyar göstəriciləri açıqlanmışdır. *Müasir dövrdə iqtisadi artım və inkişaf nəzəriyyələrinin mərkəzində innovativ fəaliyyət durur. Yeniliklərin tətbiq edilməsinin effektivliyinin və təsirinin hesablanması üçün bir çox metodlar nəzərdən keçirilir. Bu zaman effekt bir çox növə ayrılır: büdcə, sosial, ekoloji, iqtisadi, elmi-texniki, kommersiya və s.*

4. Azərbaycanda iqtisadiyyatın modernləşdirilməsi şəraitində innovasiya sahibkarlığının stimullaşdırılmasının dövlət siyasətinin və müvafiq strategiyaların prioritet istiqamətləri ilə bağlı müqayisəli təhlillər əsasında dəyərləndirmələr həyata keçirilmişdir. *Ölkəmizin innovasiya siyasətinin həyata keçirilməsini təmin edən əsas mexanizmlər yüksək texnoloji və bilik əsaslı sənaye, maliyyə və kredit mexanizmləri, qanunvericilik və normativ hüquqi aktlar, institusional dəyişikliklər, təhsil, ixrac və gömrük tənzimlənməsi ilə nəzərdə tutulmuş mexanizmlərdir.*

5. Sahibkarlıq subyektləri tətəfindən investisiya-innovasiya portfelinin səmərəli idarə edilməsi istiqamətləri göstərilmişdir. *İnvestisiya-innovasiya portfeli risk və vaxt idarəetmə vasitəsidir. Yeni məhsullar, xidmətlər, texnoloji və istehsal proseslərini formalaşdırmaq və inkişaf etdirmək üçün davamlı yaradıcı və elmi bir prosesə investisiya vacib hesab edilir.*

6. Azərbaycanda modernləşdirmənin sürətləndirilməsi və davamlı inkişaf prinsiplərinin tələbləri nəzərə alınmaqla innovasiya sahibkarlığı mexanizmlərinin təkmilləşdirilməsinə dair təkliflər verilmişdir. *İnnovasiya ekosisteminin təkmilləşdirilməsi, vençur investisiyaların stimullaşdırılması istiqamətində hüquqi tənzimləmələrin yaradılması və startapların maliyyə inklüzivliyinin təşkili üzrə mexanizmlər müəyyənləşdirilməlidir.*

**Dissertasiyanın elmi yeniliyi.** Dissertasiya tədqiqatının elmi yeniliyi aşağıdakı müddəalarla təsdiqlənir:

1. İqtisadiyyatın və cəmiyyətin mütərəqqi inkişafının əhəmiyyətli hərəkətvericisi olan innovativ sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasında xüsusi aktuallıq kəsb edən aspektlər sistemləşdirilmişdir. Bunun üçün sahibkarlıq mədəniyyətinin formalaşmaşdırılması, fərdi və institusional amillərin inkişafının təmin edilməsi prioritet hədəf hesab edilməlidir.

2. Elmi cəhətdən əsaslandırılmışdır ki, daha az inkişaf etmiş ölkələrdə rəqabət qabiliyyətinin artırılması birinci mərhələdə mövcud texnologiyaların qəbul edilməsi ilə mümkündür, lakin inkişafın innovasiya mərhələsinə çatmış ölkələrdə bu, məhsuldarlığı artırmaq üçün artıq kifayət deyildir. Rəqabətlilik məhsuldarlıqdan daha çox, unikallıq, fərqlilik, keyfiyyət və dəyər kimi konsepsiyalar vasitəsilə artımı və ya ən azından həmin səviyyəni qorumağı təmin edir.

3. Azərbaycanda innovativ sahibkarlıq fəaliyyətinin müasir inkişaf xüsusiyyətləri tədqiq edilmişdir. İdxal olunan innovasiya hesabına innovativ fəaliyyətin səmərəliliyinin təmin olunmasında peşəkar kadr hazırlığı, institusional problemlərin həlli, infrastruktur, hüquqi bazanın təkmilləşdirilməsi əhəmiyyət kəsb edir.

4. Tədqiqat işində əsaslandırlmışdır ki, ölkələrin müasir dövrdəki enerji asılılığı gələcəkdə innovasiya əsaslı texnoloji asılılığa çevriləcəkdir. Bu asılılığın azaldılması innovativ sahibkarlıq fəaliyyətinə bağlıdır. Belə şəraitdə tədqiqat və inkişaf xərclərinin artırılması, elm və texnologiya əsaslı yenilikçi layihələrin reallaşdırılması əsas hədəf hesab edilir.

5. Əsaslandırılmışdır ki, innovativ sahibkarlıqda effektiv yenilikçi layihələrə investisiyaların reallaşdırılması əhəmiyyət kəsb edir. Əhəmiyyət kəsb edən amillərə aşağıdakılar daxildir:

–istehsalat bazasını genişləndirir, istehsal gücünü artırır;

–istehsal proseslərini modernləşdirir, xərclərin səmərəliliyini artırır;

–yeni və təkmilləşdirilmiş məhsulların istehsalına, istehsalda əlavə dəyərin artmasına imkan verir;

–məhsul vahidinə düşən əmək tələbini azaldır, potensial olaraq daha yüksək məhsuldarlıq və aşağı məşğulluğu təmin edir;

–beynəlxalq səviyyəli innovasiya və keyfiyyət standartlarını əhatə edir, inkişaf etmiş ölkələrlə olan boşluğu aradan qaldırır və ixracatyönümlü beynəlxalq ticarətdə fəal iştiraka imkan yaradır.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Tədqiqatın **nəzəri əsasını** klassik və neoklassik iqtisadi nəzəriyyənin müddəaları, fərqli iqtisadi məktəblərin nümayəndələrinin tədqiqatları təşkil edir. Tədqiqat işinin **metodoloji əsası** kimi empirik tədqiqat metodlarından müqayisə və material modelləşdirmə, nəzəri tədqiqat metodlarından analiz, sintez, induksiya və deduksiya istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası.** Tədqiqatın informasiya bazasını xarici və yerli iqtisadçıların əsərləri, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi və "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in innovasiyalarla bağlı əsas müddəaları, beynəlxalq təşkilatların və Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları təşkil edir.

**Dissertasiya işinin nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri müddəaları milli iqtisadiyyatın sahələri üzrə tədrisin həyata keçirildiyi təhsil müəssisələrində, təkmilləşdirmə kurslarında, eləcə də sahə üzrə tədqiqat işlərinin aparılmasında elmi mənbə kimi, praktiki nəticələri isə innovativ sahibkarlıq subyektləri tərəfindən innovasiya layihələrinin idarə edilməsi və Azərbaycan Respublikasında innovasiya sahibkarlığının inkişafı istiqamətində istifadə oluna bilər. Bununla əlaqədar olaraq, "Sahibkarlığın əsasları və biznesə giriş" fənni müəllif tərəfindən Azərbaycan Dövlət Pedaqoji Universitetində tədris edilir.

**Tədqiqat işinin nəticələrinin aprobasiyası.** Dissertasiya işinin əsas müddəaları beynəlxalq və respublika səviyyəli konfrans materiallarında dərc edilmiş tezislərdə əks olunmuşdur. Bunlardan "İnnovativ sahibkarlığın stimullaşdırılmasının makroiqtisadi təsiri" (Bakı, dekabr 2019), "Post-neft mərhələsində Azərbaycanda innovasiya əsaslı iqtisadi inkişafin təmin edilməsinin əsas istiqamətləri" (Almaty, 21-22 July 2020), "Kiçik və orta sahibkarlıqda innovasiya siyasəti" (Bakı, 2021) və "Rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşmasında kiçik və orta sahibkarlığın innovasiya əsaslı fəaliyyətinin təsir mexanizmləri" (Samsun, May 22-23, 2021) göstərmək olar.

**Tədqiqatın nəticələrinin tətbiqi.** Dissertasiyanın əsas

müddəaları və irəli sürülən təkliflər, tövsiyələr əsasında ümumi həcmi 15.88 ç.v. olan 12 məqalə (o cümlədən xaricdə 5 məqalə) dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetində, i.e.d., prof.Ə.P.Babayevin elmi rəhbərliyi ilə yerinə yetirilmişdir.

**Dissertasiya işinin strukturu və həcmi.** Dissertasiya işi giriş (20586 işarə), 3 fəsil (I Fəsil - 111366 işarə, II Fəsil - 82033 işarə), III Fəsil - 7351 işarə), nəticə (7349), 183 adda istifadə edilmiş ədəbiyyat və ixtisarların siyahısından ibarətdir. Cədvəllər, qrafiklər, ədəbiyyat siyahısı və s. istisna olmaqla Dissertasiya işi 280 min işarə həcmindədi.

## DİSSERTASİYA İŞİNİN STRUKTURU

**Giriş**
**I Fəsil. İnnovasiya sahibkarlığı sisteminin elmi-nəzəri əsasları**
1.1. İnnovasiya sahibkarlığı fəaliyyətinin araşdırılmasına konseptual yanaşmalar
1.2. İqtisadiyyatın modernləşdirilməsi şəraitində innovasiya sahibkarlığı sisteminin funksiyaları
1.3. İnnovasiya sahibkarlığının formalaşması mexanizmlərinin inkişaf amilləri
**II Fəsil. İnnovasiya sahibkarlığı mexanizmlərinin iqtisadi inkişafda yeri və rolunun qiymətləndirilməsi (beynəlxalq müqayisə)**
2.1. İnnovasiya sahibkarlığının iqtisadi artıma təsirinin təhlili
2.2. İnnovasiya sahibkarlığının səmərəliliyinin qiymətləndirilməsi
2.3. Rəqabətqabiliyyətli iqtisadiyyatda innovativ sahibkarlığın rolu və imkanları
**III Fəsil. İnnovasiya sahibkarlığının formalaşması və inkişaf mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri**
3.1. İnnovasiya sahibkarlığının təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsi
3.2. İnnovasiya sahibkarlığının dövlət tənzimlənməsinin istiqamətləri
3.3. İnvestisiya-innovasiya portfelinin səmərəli idarə edilməsi yolları
**Nəticə**
**İstifadə edilmiş ədəbiyyat siyahısı**

# TƏDQİQATIN ƏSAS MƏZMUNU

**1. İnnovasiya sahibkarlığının konseptual əsasları və funksional xüsusiyyətlərinin açıqlanması.** İnnovasiyanın sistemli tədqiqi, avstriyalı iqtisadçı Cozef Şumpeterin innovasiyanın iqtisadi inkişafa təsirinə yönəlmiş orijinal bir yanaşma hazırlamasından sonra başlamışdır. Onun fikrincə, innovasiya mövcud resurslara əsaslanan, lakin fərqli şəkildə kombinə edilən və ya istifadə olunan, cəmiyyətin bütün sahələrində keyfiyyət dəyişikliyi yaradan hərəkətverici qüvvədir. Resursların bu "yeni kombinasiyası" müxtəlif innovasiyaların yaranmasına səbəb olur. 100 ildən çox yaşı olmasına baxmayaraq, Şumpeterin nəzəriyyəsi bu gün də öz aktuallığını saxlayır, çünki burada göstərilir ki, sahibkarlıq fəaliyyətlərinin gələcək inkişafının əsasında innovasiya durur. Lakin Şumpeterin nəzəriyyəsində aşağıdakı məhdudiyyətlər mövcuddur:

–innovasiya funksiyalarını yerinə yetirmədən bizneslə məşğul olan şəxslər istisna olunur;

–innovativ sahibkar ən güclü müəssisəni təmsil edir. Lakin inkişaf etməkdə olan ölkələrdə bu cür sahibkarlıq nadir hallarda olur;

–innovasiya funksiyalarına çox əhəmiyyət verilir. Lakin bu, sahibkarlığın aspektlərini və təşkili riskini gözardı edir;

–sahibkarı genişmiqyaslı bir iş adamı kimi qəbul edir. O, yeni bir şey yaradan insandır. Amma praktikada bir sahibkar əvvəldən genişmiqyaslı əməliyyatlar keçirə bilməz;

–"Niyə bəzi ölkələrdə digərlərindən daha çox sahibkarlıq istedadı var?" - sualına uyğun cavab verə bilmir.

Dünya iqtisadiyyatında son illərdə böyük dəyişikliklər müşahidə olunmaqdadır. Bazar subyektləri arasındakı rəqabət bir neçə seqmentdə artmışdır. Sənaye inqilabından bəri yaşam standartlarının yüksəlməsinin başlıca səbəbi yeniliklərə əsaslanan dəyişikliklərdir. Bu gün innovativ fəaliyyət rəqabət qabiliyyətini və milli inkişafı müəyyənləşdirən mühüm bir amil kimi qarşımıza çıxır. Eyni zamanda, innovasiya iqlim dəyişikliyi və davamlı inkişaf kimi qlobal problemlərin həll olunmasında vacib hesab edilir.

Bu gün innovasiya sadəcə "yeni bir şeyin yaradılması" deyil, eyni zamanda bir sıra mövcud problemlərin həlli üçün bir vasitədir.

İnnovasiya və sahibkarlıq anlayışları şübhəsiz bir-biri ilə əlaqəlidir. İnnovasiya sahibkarların xüsusi vasitəsidir, onun vasitəsilə dəyişikliklərdən fərqli bir biznes fəaliyyəti və ya xidmət üçün fürsət kimi istifadə edirlər. Qayda-qanun kimi öyrənilən, təqdim və ya tətbiq oluna biləndir. Sahibkarlar uğurlu innovasiya üçün imkan yaradan yeniliyin mənbələrini, dəyişiklikləri və onların əlamətlərini məqsədyönlü şəkildə axtarmalı və uğurlu innovasiya prinsiplərini bilməli və tətbiq etməlidirlər.

Sahibkarlıq iqtisadi fəaliyyətdir, çünki o, kifayət qədər resursların optimal istifadəsini təmin etməklə dəyər və ya sərvət yaratmaq məqsədilə bir müəssisənin yaradılması və fəaliyyətini əhatə edir. Bu dəyərin yaradılması fəaliyyəti davamlı olaraq, qeyri-müəyyən iş mühitinin mərkəzində həyata keçirildiyi üçün sahibkarlıq dinamik bir güc hesab olunur. Sahibkarlar yeni ideyalar üçün daim axtarış aparır. Sahibkarlıq daha effektiv sistemlərin inkişaf etdirilməsi və qəbul olunması üçün, mövcud əməliyyat rejimlərini mütəmadi qiymətləndirməni şərtləndirir. Başqa sözlə, sahibkarlıq təşkilatlarda qarşılıqlı güclü əlaqə (performansın optimallaşdırılması) üçün davamlı bir səy ortaya qoyur.

İstənilən innovativ fəaliyyət sahibkarlıqdır, çünki lazımi resursları axtarmaq, müəssisənin yaradılması və idarə edilməsi, əldə edilmiş nəticələrlə pul gəlirlərinin alınması və şəxsi razılıq bütövlükdə sahibkarlıq fəaliyyətini təşkil edir. Ancaq bütün sahibkarlıq innovativ fəaliyyət deyil. Yalnız yenilikçi bir məhsulun yaradılması, istifadəsi və yayılması nəticəsində sahibkarlıq gəlirini əldə etməyə imkan verən fəaliyyət innovativ sahibkarlıqdır. İnnovativ sahibkarlıq subyektlərinə innovasiya fəaliyyətini həyata keçirən müəssisələr və təşkilatlar daxildir. İnnovativ sahibkarlıq müəssisənin inkişafı üçün yeni yolların axtarılmasını nəzərdə tutur və idarəetmə konsepsiyası haqqında danışmağa imkan verir. İnnovativ sahibkarlıq tamamilə yeniliyə əsaslanır və fəaliyyətlərinin nəticəsi yeni məhsul və ya əsaslı yeni xüsusiyyətləri olan yeni məhsul və ya yeni texnologiyalardır.

**2. İnnovativ sahibkarlığın formalaşması və innovativ fəaliyyətin inkişaf dinamikasını müəyyən edən amillərinin əsaslandırılması.** İnnovativ fəaliyyətin inkişaf dinamikası, əsasən, sosial-iqtisadi transformasiyaya bağlıdır. Müasir dövrdə bu sahibkarlıq mədəniyyətinin formalaşması ilə əlaqədardır. İnnovativ fəaliyyətin əsas

məqsədi məhsulun səmərəliliyinin artırmaq, əlavə mənfəət əldə edə biləcək rəqabət qabiliyyətli məhsul yaratmaqdır. İstənilən yenilikçi fəaliyyət müstəqil olduğundan sahibkarlıqdır, yeni bir layihə və məsuliyyətin həyata keçirilməsi üçün sahibkarın bütün riskləri qəbul etməsi ilə bağlıdır.

İnnovativ sahibkarlıq fəaliyyətinin inkişafına səbəb olan dörd amili qeyd etmək mümkündür:

–iqtisadi, texnoloji: Maliyyə, maddi və texniki vasitələrin, mütərəqqi texnologiyaların, iqtisadi və elmi-texniki infrastrukturun, innovativ fəaliyyətin maliyyələşdirilməsi üzrə dövlət proqramlarının ehtiyatının mövcudluğu, innovasiya üçün maddi təşviq;

–siyasi, hüquqi: Qanunvericilik tədbirləri və innovasiya fəaliyyətini təşviq edən innovativ fəaliyyətə dövlət dəstəyi;

–təşkilati-idarəetmə: Təşkilati strukturların çevikliyi, demokratik idarəetmə tərzi, üfüqi informasiya axınlarının üstünlükləri, özünü planlaşdırma, düzəlişlərin qəbul edilməsi, mərkəzsizləşmə, muxtariyətlik, hədəf formalaşdırılması, problem qrupları;

–sosial-psixoloji və mədəni: Mənəvi həvəsləndirmə, ictimai tanınma imkanlarının təmin edilməsi, yaradıcı əməyin azad edilməsi. Normal psixoloji mühiti olan əmək kollektivinin formalaşdırılması.

Bu amillərin mövcud olduğu sahələrdə güclü və ardıcıl təşəbbüskarlıq artımını müşahidə etmək olar.

İqtisadi mühit innovativ sahibkarlığa birbaşa və dərhal təsir göstərir. Yuxarıda qeyd olunan innovativ sahibkarlıq fəaliyyətinin inkişafına səbəb olan dörd amillərdən ən önəmli təsiri olan iqtisadi amillər aşağıdakılardır:

1. Kapital: Kapital bir müəssisənin yaradılması üçün istehsalın ən vacib amillərindən biridir. Səmərəli layihələrdə kapital qoyuluşlarının artırılması kapitalın formalaşması prosesini sürətləndirməyə kömək edən gəlirin artmasına gətirib çıxarır.

2. Əmək: Ölkənin insan kapitalı potensialı texnologiyanın yeni formalarının və səmərəli və effektiv istehsal vasitələrinin inkişafında əhəmiyyətli rolu vasitəsi ilə iqtisadi artıma səbəb olacaqdır. Eyni zamanda, artımın vacib komponenti kimi insan kapitalına sərmayə endogen artım nəzəriyyəsinin əsas iddialarından biri kimi qarşımıza çıxır. Bu baxımdan peşəkar və ixtisaslı işçilərin mövcudluğu innovativ

sahibkarlığa təsir göstərən amildir. Əmək miqdarına görə deyil, keyfiyyətinə görə innovativ sahibkarlığın meydana gəlməsinə və böyüməsinə təsir göstərir.

3. Xammal: Xammal istehsal üçün tələb olunan əsas komponentlərdən biridir. Xammal çatışmazlığı sahibkarlıq mühitinə mənfi təsir edir. Xammalın kifayət qədər təchizatı olmadan heç bir sənaye düzgün fəaliyyət göstərməz. Xammal olmadığı təqdirdə, heç bir müəssisə fəaliyyət göstərə bilməz və sahibkar ola bilməz.

4. Bazar: Bazarın həcmi və tərkibi innovativ sahibkarlıq fəaliyyətinə öz təsirini göstərir. Praktik olaraq, sahibkarlıq üçün bazarda müəyyən bir məhsulda inhisarçılıq rəqabətli bazardan daha təsirli olur. Bununla belə, rəqabətqabiliyyətli bir bazarın çatışmazlığı xammal və hazır məhsullarının hərəkətini asanlaşdıran nəqliyyat sisteminin təkmilləşdirilməsi və istehsalçı mallarına olan tələbatın artması ilə müəyyən dərəcədə ləğv edilir.

5. İnfrastruktur: İnkişaf etmiş ölkələrin iqtisadiyyatına diqqət etsək innovativ sahibkarlığın genişləndirilməsində infrastruktur fəaliyyətinin yaxşılaşdırılmasının çox böyük əhəmiyyətinin olduğunu görmək mümkündür. Bu, yalnız bazarın genişləndirilməsinə kömək etmir, həm də biznesin üfüqlərini genişləndirir.

**3. Modernləşdirmə şəraitində innovasiya sahibkarlığının iqtisadiyyatda artımın və rəqabətqabiliyyətliliyin təmin edilməsində rolunun dəyərləndirilməsi.** Müasir dövrdə iqtisadi artım və inkişaf nəzəriyyələrinin mərkəzində innovativ fəaliyyət durur. Xərclər, texnoloji məhsul və proses kimi ənənəvi amillərlə yanaşı, yeniliklər rəqabət qabiliyyətinin və biznesin uğurunun əsasını təşkil edir. İnnovasiya həmçinin iqtisadiyyatın strukturunda dəyişikliklər, istehsalatda texnoloji modernləşdirmə və qlobal dəyər zəncirlərindəki daha yüksək əlavə dəyərli fəaliyyətlərə keçidlə sıx bağlıdır. Qlobal Sahibkarlıq Monitorinqi (QSM) tərəfindən 2017-ci ildə hazırlanan statistik məlumata əsaslanaraq demək olar ki, gələcək 5 ildə iş imkanları yaratmağa təsir edən ən önəmli amil innovasiya amili olacaqdır. 2020-ci ildə baş verən qlobal pandemiya fonunda innovasiyanın 5 il sonrakı təsirini təhlil etdikdə innovativ sahibkarlıq subyektlərinin klassik sahibkarlıq subyektləri ilə müqayisədə daha az təsirləndiklərini qeyd etmək mümkündür. Hər bir iqtisadiyyatın artım tempinin fərqliliyi, əsasən, innovativ

sahibkarların mövcudluğu ilə bağlıdır. Buna görə innovativ bazar subyekti artım, yenilik və texniki inkişafın mühüm bir vasitəsidir.

İqtisadi artım, əsasən, ölkədə istehsal olunmuş məhsul və xidmətlərin ümumi dəyərindəki dəyişikliklər nəzərə alınmaqla ölçülür.

Bir neçə əsas və vacib şərait (hüquqi-normativ baza, maliyyə inklüzivliyi, təhsilin keyfiyyəti və s.) innovasiya və iqtisadi artımın təşviq edilməsinə imkan verir:

– müəllif hüquqlarının qorunmasının güclü standartları və səmərəli tətbiqi;

– güclü rəqabət və rəqabətə davamlı bazarlar;

– güclü və davamlı fundamental Tədqiqat və İnkişaf (Tİ) infrastrukturu;

– informasiya və texnologiya kommunikasiyasının inkişafı;

– bütün səviyyələrdə təhsilə güclü diqqət.

İnnovativ fəaliyyətin fərqli qiymətləndirmələrinə görə, ÜDM-də innovativ məhsullarının xüsusi çəkisi inkişaf etməkdə olan ölkələrdə 5%-ə qədər olduğu halda, inkişaf etmiş ölkələrdə bu göstərici 40-60%-ə yaxındır. Azərbaycanda iqtisadiyyatın bütün sahələrində elmi fəaliyyətə ÜDM-in 3.8%-i qədər vəsait xərclənir. Dünyada ixracın ümumi həcmində yüksək texnoloji məhsulların payı 3%-ə qədərdir. Dünya təcrübəsində innovasiya fəaliyyətinin inkişafında əsas rolu iqtisadiyyatın real sektoruna inteqrasiya olunmuş “firmadaxili” elm oynayır. Sənayesi inkişaf etmiş dövlətlərdə elmi tədqiqatların və inkişafın əsas həcmi, məsələn, Avropa İttifaqı ölkələrində 65%-i, Yaponiyada 71%-i, ABS-da 75%-i şirkətlər tərəfindən yerinə yetirildiyi halda, Azərbaycanda bu göstərici 5%-i keçmir[1].

İnnovasiyanın tətbiqi sayəsində məhsulların istehsal və satış həcminin artması, xərclərin azaldılması, əmək məhsuldarlığının və keyfiyyətinin artması, bunların nəticəsi olaraq mənfəət və gəlirlilik artımı təmin olunur və istehsalın digər iqtisadi, sosial və texniki göstəriciləri yaxşılaşdırılır. İstənilən yenilik təsərrüfat subyektlərinin iqtisadi və texniki göstəricilərinin yaxşılaşdırılmasına yönəldilməlidir. İqtisadi praktikada bu, ümumi iqtisadi göstəricilərin səviyyəsi, elmi və texniki inkişafın vacib yer tutduğu resurslar kompleksindən asılıdır.

---

1.Indicators: [Electronic resource] / The World Bak. URL: https://bit.ly/38FpXhr.

İnnovasiya və sahibkarlıq rəqabət qabiliyyətli və dinamik iqtisadiyyatların əsas blokları hesab olunur. Yenilik və sahibkarlıq ekosistemləri olan ölkələr və bölgələr daha yüksək məhsuldarlıq nisbətlərinə şahid olurlar, bu da iqtisadi artıma və daha çox iş yerlərinin yaranmasına gətirib çıxarır. Dinamik inkişafın əsas hərəkətverici qüvvəsi olaraq, innovasiya formal məşğulluğu və əmək haqqının artırılmasını stimullaşdırmaqla birgə rifahı yüksəldir.

Nəzərə almaq lazımdır ki, Qlobal İnnovasiya İndeksinin 2023-cü il göstəricilərinə əsasən Azərbaycan ümumi sıralamada 132 ölkə arasında 89-cu yerdə və eyni gəlir qrupuna daxil olan 33 ölkə üzrə 28-ci sırada qərarlaşmışdır (Cədvəl 1).

**Cədvəl 1. 2023-cü il üçün Qlobal İnnovasiya İndeksi[1]**

| QİI sırası | İqtisadiyyat | Xal | Yuxarı-orta gəlir qrupuna daxil olan ölkələrin sırası |
|---|---|---|---|
| **12** | Çin | 55.3 | 1 |
| **36** | Malayziya | 40.9 | 2 |
| **38** | Bolqarıstan | 39.0 | 3 |
| **39** | Türkiyə | 38.6 | 4 |
| **43** | Tayland | 37.1 | 5 |
| **49** | Braziliya | 33.6 | 6 |
| **51** | Rusiya Federasiyası | 33.3 | 7 |
| **53** | Serbiya | 33.1 | 8 |
| **54** | Şimali Makedoniya | 33.0 | 9 |
| **57** | Mavrikiy | 32.1 | 10 |
| **58** | Meksika | 31.0 | 11 |
| **59** | Cənubi Afrika | 30.4 | 12 |
| **60** | Moldova Respublikası | 30.3 | 13 |
| **65** | Gürcüstan | 29.9 | 14 |
| **66** | Kolumbiya | 29.4 | 15 |
| **71** | İordaniya | 28.2 | 16 |
| **72** | Ermənistan | 28.0 | 17 |
| **73** | Argentina | 28.0 | 18 |
| **74** | Kosta Rika | 27.9 | 19 |
| **75** | Monteneqro | 27.8 | 20 |
| **76** | Peru | 27.7 | 21 |
| **77** | Bosniya və Herseqovina | 27.1 | 22 |
| **78** | Yamayka | 27.1 | 23 |
| **80** | Belarusiya | 26.8 | 24 |
| **81** | Qazaxıstan | 26.7 | 25 |
| **83** | Albaniya | 25.4 | 26 |

[1] Global Innovation Index 2023: [Electronic resource]. URL: https://bit.ly/38Jtr2b

| | | | |
|---|---|---|---|
| **85** | Botsvana | 24.6 | 27 |
| **89** | **Azərbaycan** | **23.3** | **28** |
| **94** | Dominik respublikası | 22.4 | 29 |
| **96** | Namibiya | 21.8 | 30 |
| **98** | Paraqvay | 21.4 | 31 |
| **104** | Ekvador | 20.5 | 32 |
| **122** | Qvatemala | 15.8 | 33 |

Ölkəmizdə aparılan uğurlu iqtisadi siyasət innovasiya sahəsində özünü göstərir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təsdiq olunan "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası və Strateji Yol Xəritəsində innovasiyalarla bağlı əsas hədəflər öz əksini tapmışdır. İnnovativ inkişaf modelinin reallaşdırılması üçün ölkənin iqtisadi siyasətində artıq bir neçə vacib addımlar atılmışdır ki, burada qanunvericilik bazasının təkmilləşdirilməsini, sənaye və texnoloji parkların yaradılmasını qeyd etmək mümkündür. İnnovativ fəaliyyətdə yüksək texnologiyalar, informasiya və kommunikasiya texnologiyaları mühüm rol oynayır. İKT təhsil, səhiyyə, kənd təsərrüfatı, istehsalat, xidmət, sosial və sair sahələrdə innovasiyaların tətbiqinə geniş imkanlar yaradır. Müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan innovasiya və yüksək texnologiya sahələrinin genişləndirilməsini təmin etmək məqsədilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində "Yüksək Texnologiyalar Parkı" və Mingəçevir şəhərində "Yüksək Texnologiyalar Parkı" yaradılmışdır. Bu parklarda vergi və gömrük güzəştləri tətbiq edilir. İnnovativ sahibkarlıq fəaliyyətinin stimullaşdırılması məqsədilə "Yüksək Texnologiyalar Parkı"nda Biznes İnkubasiya Mərkəzi yaradılmışdır ki, burada 30-dan çox startap layihəsi həyata keçirilir.

Azərbaycan iqtisadiyyatı neft gəlirlərinin azalması fonunda innovasiyalara daha çox ehtiyac duyur. Neft-qaz ehtiyatları ilə zəngin olan ölkələrin iqtisadi artımının digər ölkələrdən geri qalması və davamlı iqtisadi artım üçün innovasiyaya daha çox ehtiyac duyması aparılan empirik tədqiqatlarla sübut olunmuşdur (1960-2006-cı illik dövrdə neft ölkələri ortalama illik 1,67%, qeyri-neft ölkələri isə müvafiq olaraq 1,76% iqtisadi artıma malik olmuşdur).[1] Bu səbəbdən

[1] Aslanlı, K. Azərbaycanda innovasiya siyasətinin effektivliyinin artırılması yolları / K.Aslanlı. – Bakı: Sahibkarlığa və bazar iqtisadiyyatının inkişafına yardım fondu, – 2017. – 51 s.

də, Azərbaycanın iqtisadi inkişaf strategiyasının əsas məqsədi qeyri-neft sektorunun inkişafı hesabına davamlı iqtisadi artıma nail olunması və iqtisadiyyatın diversifikasiyadır. İnnovativ fəaliyyət sferasının genişləndirilməsi üçün motivasiya mexanizmlərinin ortaya çıxarılması və inkişaf etdirilməsi dövlət siyasətinin prioritet məqsədlərindən biri hesab edilir.

**4. İnnovativ sahibkarlığın inkişafının resurs təminatında irəliləyişlər və yeni strategiyaların formalaşdırılması imkanları.** Bazarda önə çıxmaq üçün daha çox innovativ layihələrin reallaşdırılması vacibdir. İnnovasiya portfeli biznesə yeni xidmət və məhsulların daxil olmasına imkan verir. İnnovasiya portfeli eyni zamanda vaxt idarəetmə vasitəsidir. Yeni bir təşəbbüsün icrasına lazım olan vaxtı qiymətləndirməyə, həmçinin tamamlanmış bir məhsulu bazara və hətta istehsalata keçirtməyə kömək edir. Qeyd etmək lazımdır ki, innovasiya portfeli yalnız layihə və təşəbbüslərin siyahısından ibarət deyil. Risk faktoru, strateji uyğunluq, mənbə tələbləri, potensial geri dönüş baxımından bu təşəbbüsləri başqaları ilə müqayisə etmək üçün innovasiya portfeli vacib hesab olunur.

Azərbaycan iqtisadiyyatının inkişafının intensivliyi birbaşa ölkə sənayesinin modernləşmə sürəti və keyfiyyətindən asılıdır. İnnovativ fəaliyyətin tətbiqi biznes sistemlərinin bazarda effektiv rəqabət aparmasına, yeni müştərilərin cəlb edilməsinə və maliyyə göstəricilərinin artırılmasına imkan verir.

Bazar subyektləri, bazar payını artırmaq, xərcləri azaltmaq və ümumiyyətlə daha məhsuldar olmaq üçün yeniliklərə sərmayə qoyurlar. Bir çox müəssisə üçün, innovativ fəaliyyət daha vacibdir, çünki istehlakçı tələbi daha mürəkkəbdir və rəqabətaparma çətindir.

Orta hesabla, firmalar müxtəlif yeniliklərlə bağlı fəaliyyətlərdə gəlirlərinin 1-2 %-ni xərcləyirlər, lakin bəzi ölkələrdə böyük şirkətlər üçün bu pay 5 %-dən çoxdur.[1]

Azərbaycanda texnoloji innovasiyalara çəkilən xərclər müvafiq qaydada Cədvəl 2 və 3-də göstərilmişdir.

---

[1] Investing in innovation – Firms investing in innovation: [Electronic resource]. – 2010. URL: https://bit.ly/2CrOfPN.

## Cədvəl 2. Azərbaycanda fəaliyyət növləri üzrə texnoloji innovasiyalara çəkilən xərclər (min manatla)[1]

| Göstəricilər | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|
| **Bütün sənaye** | 35179.1 | 27929.0 | 16135.7 | 34353.6 | 48037.1 | 35919.8 | 5848.3 | 22540.4 |
| ondan müəssisələrin öz vəsaiti hesabına | 34779.2 | 14286.5 | 16076.0 | 34278.0 | 47319.7 | 17631.9 | 4807.1 | 184.8 |
| **Mədənçıxarma sənayesi** | 2671.5 | 179.6 | 31.7 | 1386.0 | 378.6 | 1001.1 | 529.8 | 19.3 |
| ondan müəssisələrin öz vəsaiti hesabına | 2671.5 | 179.6 | 31.7 | 1386.0 | 320.2 | 626.2 | 10.5 | 13.6 |
| **Emal sənayesi** | 32492.5 | 27744.4 | 16104.0 | 32967.6 | 47658.5 | 34918.7 | 5318.5 | 22521.1 |
| ondan müəssisələrin öz vəsaiti hesabına | 32092.6 | 14101.9 | 16044.3 | 32892.0 | 46999.5 | 17005.7 | 4796.6 | 171.2 |
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | 15.1 | 5.0 | - | - | - | | | |
| ondan müəssisələrin öz vəsaiti hesabına | 15.1 | 5.0 | - | - | - | | | |

## Cədvəl 3. İnnovasiyaların tiplərinə görə sənayedə texnoloji innovasiyalara çəkilən xərclər (min manat)[2]

| Göstəricilər | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|
| **Bütün sənaye** | 35179.1 | 27929.0 | 16135.7 | 34353.6 | 48037.1 | 35919.8 | 5848.3 | 22540.4 |
| məhsul innovasiyaları | 13685.2 | 20313.8 | 10439.6 | 23298.7 | 38343.5 | 20059.2 | 1986.3 | 18154.3 |
| proses innovasiyaları | 21493.9 | 7615.2 | 5696.1 | 11054.9 | 9693.6 | 15860.6 | 3862.0 | 4386.1 |
| **Mədənçıxarma sənayesi** | 2671.5 | 179.6 | 31.7 | 1386.0 | 378.6 | 1001.1 | 529.8 | 19.3 |
| məhsul innovasiyaları | 2528.0 | 10.0 | 1.0 | 679.3 | 290.0 | 638.2 | 117.4 | 19.3 |
| proses innovasiyaları | 143.5 | 169.6 | 30.7 | 706.7 | 88.6 | 362.9 | 412.4 | - |
| **Emal sənayesi** | 32492.5 | 27744.4 | 16104.0 | 32967.6 | 47658.5 | 34918.7 | 5318.5 | 22521.1 |
| məhsul innovasiyaları | 11157.2 | 20303.8 | 10438.6 | 22619.4 | 38053.5 | 19421.0 | 1868.9 | 18135.0 |
| proses innovasiyaları | 21335.3 | 7440.6 | 5665.4 | 10348.2 | 9605.0 | 15497.7 | 3449.6 | 4386.1 |
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | 15.1 | 5.0 | - | - | - | - | - | - |
| məhsul innovasiyaları | - | - | - | - | - | - | - | - |
| proses innovasiyaları | 15.1 | 5.0 | - | - | - | - | - | - |
| **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | - | - | - | - | - | - | - | - |
| məhsul innovasiyaları | - | - | - | - | - | - | - | - |

[1] Azərbaycanın sənayesi: [Elektron resurs] / Statistik məcmuə. – Bakı, – 2020. – 166 p. URL: https://bit.ly/3s4YpeE.
[2] Yenə orada

2015-ci ildən başlayaraq, Azərbaycan sənaye müəssisələrində texnoloji innovasiyalara çəkilən xərclərdə müəyyən azalmalar müşahidə olunur. Lakin, son illərdə innovasiya fəaliyyətində yaxşılığa doğru dəyişikliklər olmuşdur. Belə ki, aparılmış təhlil nətiəsində texnoloji innovasiyalara çəkilən xərclərin investisiya xərcləri içində payı əvvəlki illərlə müqayisədə artmışdır. 2015-2022-ci illər arasında əsas kapitala investisiya xərclərində və innovasiya xərclərində azalma müşahidə olunur. (Cədvəl 4).

**Cədvəl 4. Azərbaycan sənayesində texnoloji innovasiyalar[1]**

| İllər | Sənayedə əsas kapitala yönəldilən investisiyalar (faktiki qiymətlərlə), milyon manat | Texnoloji innovasiyalara çəkilən xərclər, min manat | Texnoloji innovasiyalara çəkilən xərclərin investisiyada xüsusi çəkisi, % |
|---|---|---|---|
| 2015 | 8499.90 | 35179.10 | 0.4 |
| 2016 | 9949.80 | 27929.00 | 0.3 |
| 2017 | 10610.10 | 16135.70 | 0.2 |
| 2018 | 8497.20 | 34353.60 | 0.4 |
| 2019 | 9258.00 | 48037.10 | 0.5 |
| 2020 | 9065.30 | 35919.80 | 0.4 |
| 2021 | 7507.30 | 5848.30 | 0.1 |
| 2022 | 7172.10 | 22540.40 | 0.3 |

Bu göstəricilər əsasında qeyd etmək mümkündür ki, innovasiya sahəsində çəkilən xərclərdə müsbət dinamika müşahidə olunur. Lakin, bazar subyektlərinin beynəlxalq bazarda rəqabətə dayanıqlılıq göstərə bilməsi üçün istehsalın modernləşdirilməsi məqsədilə çəkilən xərc kifayət deyil. Düşünürük ki, bunun da əsas səbəbləri maliyyə inklüzivliyinin təmin olunmaması və iqtisadi risklərin yüksək olmasıdır.

Araşdırmalar innovasiya ilə investisiya, gəlirlilik və artım arasında sağlam bir əlaqə olduğunu göstərir. Tədqiqat və İnkişaf daxil olmaqla, innovasiyaya sərmayə qoymaq uzunmüddətli kommersiya faydasına (məhsuldarlıq, rəqabət qabiliyyəti və nəticədə artan satışlar) gətirib çıxarır.

Beləliklə, innovasiya üçün resurs dəstəyi (elmi, təşkilati, ekoloji,

[1] Azərbaycanın sənayesi: [Elektron resurs] / Statistik məcmuə. – Bakı, – 2020. – 166 p. URL: https://bit.ly/3s4YpeE.

sosial və digər sahələrdə) olmadan yenilikləri yaratmaq və həyata keçirmək imkansızdır. Yalnız innovasiyayönümlü bir yanaşma maddi təsirə və bu sahələrdə istənilən nəticələr əldə etməyə imkan verir. İnnovasiya-investisiya prosesi innovasiya-investisiya strategiyasının formalaşdırılması ilə başlayır. Qloballaşan bir şəraitdə sənayenin inkişafı üçün innovasiya-investisiya inteqrasiya strategiyasının formalaşması aşağıdakılardan asılıdır: siyasi, hüquqi, maliyyə, iqtisadi və infrastruktur şəraiti. Dəyişən daxili və xarici mühitə uyğunlaşdırılan düşünülmüş strategiyanın olmaması, ümumi inkişaf strategiyasının zəifliyini əks etdirən əhəmiyyətli bir çatışmazlıqdır ki, bu da müasir texnologiyalarının tətbiqini və innovativ məhsul istehsalını mürəkkəbləşdirir. İnnovasiya-investisiya inteqrasiyası strategiyası milli iqtisadiyyatın sənaye sektorunun prioritet inkişafı üçün strateji sənəddir. Bu, milli sənaye sektorunun gələcəkdə dayanıqlı mövqeyi üçün strateji məlumat və idarəetmə metodlarının mənbəyidir.

**5. Sahibkarlığın inkişafının effektiv innovasiya siyasəti ilə stimullaşdırılması istiqamətləri.** İqtisadiyyatın mütərəqqi institusional və struktur dəyişiklikləri iqtisadi subyektlərin innovativ inkişafının idarə olunması üçün proqramların, plan və layihələrin intensiv yenilənməsini və təmin edilməsini, müsbət dəyişikliklərin həyata keçirilməsini, tənzimləmə mühitinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasını, sənaye və müəssisələrin modernləşdirilməsi üçün müvafiq şəraitin yaradılmasını tələb edir. İqtisadi subyektlərin innovativ inkişafını təmin etmək, bu proseslərin idarəetmə sistemlərinin inkişaf nəzəriyyəsi və praktikası dəyişdirilmədən və təkmilləşdirilmədən mümkün deyildir.

Müasir şəraitdə iqtisadi subyektlərin innovativ əsasda inkişafını təmin etmək üçün ən vacib məsələ bütün fəaliyyət sahələrində innovasiya proseslərinin intensivləşdirilməsi və təşkilati strukturun bütün elementlərinin səylərinin qarşıya qoyulan vəzifələrin icrasına yönəldilməsidir. İqtisadi subyektlərin innovativ inkişafının səmərəliliyi idarəetmə sisteminin müəssisənin bütün iş proseslərinə təsir göstərmək və rəqabət qabiliyyətini təmin etmək və bazar mövqelərini möhkəmləndirmək üçün daxili imkanlarını ətraf mühitin problemləri ilə əlaqələndirmək qabiliyyəti ilə müəyyən edilir.

İnnovativ sahibkarlıq fəaliyyəti fürsətlərin qəbul edilməsi və bu imkanların həyata keçirilməsi üçün təşkilatların yaradılması ilə bağlı

bütün funksiyaları, fəaliyyət və tədbirləri əhatə edir. Bəzi tədqiqatçılar, fürsətin tapılması və istifadəsini sahibkarlığın əsas təməl prinsipi kimi təqdim etməyə çalışmışlar.

Sahibkarlıq haqqında yazılmış bütün araşdırmalarda kapitalın üç əsas amili sahibkarlıq prosesinin əsas elementləri kimi qeyd edilmişdir: insan, maliyyə və sosial. İnnovativ sahibkarlıq insan kapitalı, bacarıq, təcrübə və təhsildən formalaşır; maliyyə kapitalı borc və ya öz daxili vəsaitindən ibarətdir, sosial əlaqələr potensial olaraq biznesin yaradılmasında faydalı olan resurslar hesab edilir.

Təşviqetmə siyasəti ən əsas və önəmli siyasətdir və sahibkarlıq mədəniyyətinin formalaşmasında vacib yer tutur. İnnovativ sahibkarlıq, ideyaların kommersiya davranışlarına çevrilməsidir, belə ki, sahibkarlıq fəaliyyətinə yönəlmiş ideyaları və innovativ fikirləri stimullaşdırır.

Sahibkarlıq, ilk növbədə, iş yerlərinin yaradılmasına və böyüməsinə öz töhfəsini verdiyinə görə dəstəklənir. Bu gün böyük bazar subyektlərinə nisbətdə yeni və kiçik müəssisələr tərəfindən yaradılan yeni işlərin sayı çoxalıb və bu tendensiya daha da güclənir. Sahibkarlıq fəaliyyətində daha çox artım göstərən ölkələrdə işsizlik nisbətlərində daha çox azalma müşahidə olunur. XX əsrin 90-cı illərdə sürətlə inkişaf edən şirkətlər məşğulluğun yaradılmasına mühüm töhfələr verməyə başladılar. ÜDM-in artımı bir çox digər amillərdən təsirlənsə də, tədqiqatlar innovativ sahibkarlığın iqtisadi artıma müsbət təsir göstərdiyini sübut edir. Sahibkarlıq sosial və iqtisadi birliyin möhkəmləndirilməsinə, iqtisadi fəaliyyətlərin dirçəldilməsinə, iş yerlərinin yaradılmasına eyni zamanda, fiziki məhdudiyyətli insanların iş həyatına inteqrasiyasına çox ciddi kömək edir.

İkincisi, rəqabət mühitinin təmin edilməsi üçün sahibkarlığın təşviq edilməsi vacib amildir. Yeni müəssisənin yaradılması və mövcud bazar subyektini yönləndirmək üçün yeni təşəbbüslər məhsuldarlığı artırır. Bazar subyektlərinin artan effektivliyi və innovativ fəaliyyətləri bütövlükdə iqtisadiyyatın rəqabət qabiliyyətini artırmağa xidmət edir.

İnnovativ sahibkarların innovativ fəaliyyətinin təməlindəki əsas səbəblər bazar və istehlakçı təlabatlarını təxmin etmək və bu təlabatları yeni məhsullar, xidmətlər və yüksək keyfiyyətlərlə qarşılamaqdır. Bu tələbləri ödəyərkən "istehlakçı", "rəqabət", "cəmiyyət" və "təşkilat"

amillərini nəzərə almaq vacibdir.

İnnovasiya, bazar subyektlərinin fəaliyyətinin səmərəliliyinin artırılması və davamlı rentabelliyi ilə fəaliyyəti üçün böyük səylərin nəticəsidir. Bu mənada, yeniliklər müəssisələrin, xüsusilə kiçik və orta ölçülü müəssisələrin sürətli inkişafı və böyüməsində böyük əhəmiyyət kəsb edir. Mövcud vəziyyəti ən yaxşı şəkildə qiymətləndirən və dəyərləndirən sahibkarlar innovasiya prosesini uğurla həyata keçirə bilərlər. İnnovasiya prosesi bir qayda olaraq, yeni biznes ideyalarından və imkanlarından yaranır, nəticədə kommersiya və öyrənmə ilə nəticələnir və özünü yenidən inkişaf etdirir. Bu proses fərqli olmasına baxmayaraq, müəssisələrdəki innovasiya konsepsiyası və təcrübəsi ümumiyyətlə məhsul və proses yeniliklərində özlərini güclü şəkildə biruzə verir.

Proqressiv milli iqtisadiyyatın ən mühüm amillərindən biri, effektiv innovasiya siyasətinin inkişafı və həyata keçirilməsidir. İnnovativ fəaliyyətin əsas məqsədi elmi və texnoloji tərəqqinin nailiyyətlərinə əsaslanan yeni, qabaqcıl texnologiyaların (prioritet fundamental və tətbiqi tədqiqatların) tətbiq olunmasıdır.

İqtisadiyyatın bütün səviyyəsində innovasiyayönümlü fəaliyyətin aktivləşdirilməsi islahatlar, mövcud təşkilati və iqtisadi mexanizmlərin müəyyənləşdirilməsi və onların innovativ inkişafının səmərəliliyinin artırılması və əlaqəli mexanizmlər əsasında formalaşması ilə müşayiət edilməlidir. Elmi-texnoloji potensial sosial və fərdi inkişaf proseslərinin komponenti olan innovasiya prosesində mühüm amildir.

**6. Dayanıqlı inkişafın təmin olunması kontekstində innovasiya sahibkarlığının inkişaf mexanizmlərinin təkmilləşdirilməsi.** İnkişaf etmiş ölkələrdə yeniliklərin inkişafı və həyata keçirilməsi sosial və iqtisadi inkişafda, iqtisadi və milli təhlükəsizliyin təmin edilməsində mühüm amilidir. Dövlətin davamlı innovativ siyasəti dayanıqlı iqtisadi inkişaf və ölkədə ÜDM-nin artması üçün vacibdir. Bu siyasət istehsalat ilə elmi birləşdirmək üçün vacibdir. Dövlət sahibkarlıq fəaliyyətində yenilikçi fəaliyyəti cəlb etmək üçün bir çox proqramların inkişaf etdiricisidir.

Ölkəmizin innovasiya siyasətinin həyata keçirilməsini təmin edən əsas mexanizmlər yüksək texnoloji və bilik əsaslı sənaye, maliyyə və kredit mexanizmləri, qanunvericilik və normativ hüquqi aktlar, institusional dəyişikliklər, təhsil, ixrac və gömrük tənzimlənməsi ilə

nəzərdə tutulmuş mexanizmlərdir. Sahibkarlığın inkişafı ölkə iqtisadiyyatının diversifikasiyası baxımından həyata keçirilən dövlət siyasətinin aparıcı istiqamətlərindən birini təşkil edir. Bu siyasət iqtisadiyyatın bütün sahələrində, xüsusilə prioritet inkişaf sahələrində işgüzar fəaliyyət üçün normativ-hüquqi, təşkilati və maliyyə təminatı səviyyəsinin yüksəldilməsinə yönəldilmişdir.

İnnovativ sahibkarlığın mexanizmləri üç əsas səviyyədə stimullaşdırılır: makrosəviyyədə, regional səviyyədə və müəssisə səviyyəsində.

Dövlət innovativ fəaliyyəti aşağıda qeyd olunan formada dəstəkləyir və stimullaşdırır:

–yeniliklərin tənzimlənməsi üçün qanunvericilik və tənzimləyici çərçivənin təkmilləşdirilməsi;

–yüksək texnologiyalı məhsulların və onların qabaqcıl texnologiyalarının dövlət ehtiyacları üçün satınalmaların təşkili, onların yayılmasının təmin edilməsi;

–innovasiya fəaliyyətinin həyata keçirilməsi üçün imtiyazlı şərtlər və innovasiya proqramları və layihələrinin həyata keçirilməsinə sərmayə qoyan daxili və xarici investorların stimullaşdırılması.

Ölkəmizdə innovativ iqtisadi fəaliyyətin stimullaşdırılması üçün son dövrlərdə xeyli işlər həyata keçirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 noyabr tarixli 736 nömrəli Fərmanı ilə Bakı şəhəri, Pirallahı rayonunda Yüksək Texnologiyalar Parkı təsis edilmişdir. Yüksək Texnologiyalar Parkı ölkə ərazisində yaradılacaq parkların idarəedici təşkilatı statusunda çıxış edir. Bu formatda regionlarda innovativ fəaliyyətləri dəstəkləmək üçün ilk Yüksək Texnologiyalar Parkı Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 fevral tarixli 481 nömrəli Fərmanı ilə Mingəçevir şəhərində yaradılmışdır. Həmçinin Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 8 noyabr tarixli 2425 nömrəli "Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Yüksək Texnologiyalar Parkının yaradılması haqqında" Sərəncamı ilə innovasiya məhsulunun və yüksək texnologiyaların hazırlanması, işlənilməsi və ya təkmilləşdirilməsi məqsədilə elmi tədqiqatların və təcrübə-konstruktor işlərinin aparılması, onların nəticələrinin sənaye, xidmət və digər sahələrdə tətbiqi (kommersiyalaşdırılması)

üçün Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Yüksək Texnologiyalar Parkı təsis edilmişdir. Azərbaycanda yaradılan yüksək texnologiyalar parkları lazımı infrastruktur, maddi-texniki baza və idarəetmə qurumları ilə təmin edilmişdir və qeydiyyatdan keçən rezidentlər vergi və gömrük güzəştlərindən yararlanırlar.

Dünyada yaradıcı (kreativ) sahədə çalışan insanların nisbəti keçmişdə ümumi işçi qüvvəsinin təxminən 10%-ni təşkil edirdisə, bu gün bu nisbət 30%-ə çatıb.




**Qrafik 1. İnnovasiya səmərəlilik sıralaması**[1]

Qrafik 1-də dissertant tərəfindən QİI-nin məlumatları əsasında Azərbaycanla eyni gəlir qrupuna daxil olan ölkələrin innovasiya çıxış alt-indeks göstəricilərinin daxilolma alt-indeks göstəricilərinə nisbəti tapılaraq innovasiya səmərəlilik sıralaması tərtib edilmişdir. 2013-cü illə müqayisədə Azərbaycan 2022-ci ildə səmərəlilik göstəricisi nisbəti aşağı düşmüşdür. Bununda əsas səbəbi tədqiqat xərclərini və bilik və texnoloji buraxılış səviyyəsinin aşağı olmasıdır. İnnovasiya səmərəliliyinin artırılması innovasiya göstəriciləri üzrə nəticədən asılıdır. Həmin göstəricilər üzrə Azərbaycanda diqqət edilməsi zəruri hesab etdiyimiz istiqamətlər tədqiqat xərclərinin artırılması, bilik və texnoloji buraxılış səviyyəsinin yüksəldilməsidir.

[1] The World Bank: [Electronic resource] / – July 18, 2023. URL: https://bit.ly/4j0WEcS

Davamlı rəqabət üstünlükləri formalaşdırmaq üçün bazar subyektlərinin fəaliyyətlərində yeni yollar və üsullar tapmaq lazımdır. Bir iqtisadi fəaliyyətin rəqabət qabiliyyətinin artırılmasına təsir edən vacib amillərdən biri, yeni institusional mühitdə istehsalın, elmi, texniki, sosial və maliyyə sahələrini əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasına xidmət edən müxtəlif növ innovasiyaların istifadəsi hesab olunur.

Pandemiyanın yaratdığı yeni şərait fonunda rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşması innovasiya imkanlarında asılıdır. Azərbaycan üzrə müsbət tendensiya müşahidə olunsa da rəqabət komponentlər üzrə innovasiya göstəricisi qənaətbəxş deyildir. İnnovasiya yeni iş yerlərinin yaradılmasına, məhsuldarlığın artımına və yeni müəssisələrin ortaya çıxmasına imkan verir. Eyni zamanda, bu kimi müsbət fəaliyyətlər rəqabət qabiliyyətinin dayanıqlılığını təmin edir. İnnovativ iqtisadiyyatlar daha məhsuldar, daha dayanıqlı, daha yüksək yaşayış standartlarını dəstəkləyir və dəyişikliklərə daha tez uyğunlaşır. Bazar subyektləri rəqabət üstünlüyünü təmin etmək və qorumaq üçün yeniliklərin təsir mexanizmlərindən faydalanırlar. Rəqabət üstünlüyü üçün İT-nin istifadəsi vacib amil hesab olunur.

**Dissertasiya işinin əsas məzmunu müəllifin çap etdirdiyi aşağıdakı əsərlərdə öz əksini tapmışdır:**

1. Zeynalov A.A. İnnovasiya sahibkarlığının dövlət tənzimlənməsi meyilləri. // - Bakı: Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri, - Oktyabr-Dekabr 2017. Cild 5, – s. 125-135.

2. Zeynalov A., İmanzada A., Hasanov S. Financial inclusion: What and how? Evidence from Azerbaijani economy // EconStor, – September 2017.

3. Zeynalov A.A. İnnovasiya yönümlü kənd təsərrüfatının iqtisadi inkişafda rolu // – Bakı: AMEA-nın İqtisadiyyat İnstitutu Elmi əsərlər, – 2018. №3. – s. 135 – 140.

4. Zeynalov A.A. İnnovativ iqtisadi fəaliyyət rəqabətin və inkişafın əsasıdır // Azərbaycanın iqtisadi inkişaf strategiyası mövzusunda respublika elmi konfransının materialları, I Cild, – Bakı- UNEC-24, – Dekabr 2019. – s. 271 – 275.

5. Zeynalov A.A. İnnovativ sahibkarlıq: Fərdi və institusional amillər // – Bakı: “AUDİT” Elmi-praktiki jurnal, –2020. Cild 29, №3,

– s. 108 – 115.

6. Zeynalov A.A. İnnovativ iqtisadi inkişafda insan kapitalı potansialının və intellektual mülkiyyət institutlarının təsiri // – Bakı: İqtisadi Artım və İctimai Rifah elmi jurnal, – 2020. №1. – s. 102 – 110.

7. Zeynalov A.A. The role of scientific, technical innovations in modernzation environment of economy // Uzhorod National University Herald. International Economic Relations And World Economy, – 2020. Випуск 32, – p. 19 – 24.

8. Zeynalov A.A. İnnovativ sahibkarlığın stimullaşdırılmasının makroiqtisadi təsiri // AL FARABI JOURNAL 8 th International Conference on Social Sciences, Almaty, Kazakhstan, – 21-22 July 2020, Beynəlxalq elmi konfransın materialları, – p. 288 – 291.

9. Zeynalov A.A. Sahibkarlıq və innovasiya strategiyalarının iqtisadi inkişafa təsiri: Azərbaycan iqtisadiyyatı timsalında // – Bakı: "AUDİT" Elmi-praktiki jurnal, – 2020. Cild 30, №4, – s. 126 – 134.

10. Zeynalov A.A. Post-Neft Mərhələsində Azərbaycanda İnnovasiya Əsaslı İqtisadi İnkişafın Təmin Edilməsinin Əsas İstiqamətləri // "Heydər Əliyev və Azərbaycanda iqtisadi islahatlar: nəticələr və perspektivlər" mövzusunda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş Respublika elmi-praktiki konfransın materialları, Bakı – UNEC – 2021, – s. 122 – 128.

11. Zeynalov A.A. Kiçik və orta sahibkarlıqda innovasiya siyasəti // 5. International 19 may innovative scientific approaches congress, May 22-23, 2021 Samsun/TURKEY, Beynəlxalq elmi konfransın materialları, – p. 1 – 6.

12. Zeynalov A.A. Influence mechanisms of innovation-based activity of Small and medium enterprises in the formation of a competitive economy // collection of scientific papers "Economic innovations". – December 2021. Vol 23, No 4(81)., - s. 44-51

Dissertasiyanın müdafiəsi 12 fevral 2025-ci il tarixində saat 15:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın Azərbaycan və İngilis dillərində elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında (www.unec.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 11 yanvar 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 28.12.2024
Kağızın formatı: 60x84 1/16.
Həcmi 1 ç.v. (41506 işarə)
Tiraj 100.

*"AA – Poliqraf" istehsalat*-kommersiya birliyində
*hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.*

*Əlaqə üçün: capevi@internet.ru Tel.: +994552012809*